# Azərbaycanda yeni sənaye məhəllələri yaradılır

***Dövlət başçısının rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrini əhatə edən islahatlar hüquqi-siyasi istiqamətdə həyata keçirilməklə, həm də sahibkarlığın inkişafına güclü təkan verir. Başqa sözlə, iqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkan yaradır, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırır. Bu isə iqtisadiyyatın, xüsusilə də özəl sektorun inkişafını sürətləndirir. Sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılmasının xüsusi diqqət mərkəzində saxlanılması da investisiya mühitinin yaxşılaşdırılmasına müsbət təsir göstərir.***

Son illər müasir texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi sayəsində ölkəmizdə sənayeləşmə sürətlə inkişaf edib, metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və digər ənənəvi sənaye sahələri genişləndirilməklə yanaşı, yeni sənaye sahələri yaradılıb, respublikamızda bir sıra sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlib. Əlbəttə, bütün bunlar dövlətimizin başçısının uğurlu iqtisadi strategiyası nəticəsində gerçəkləşib. Təkcə 2019-cu il ərzində sözügedən istiqamətdə ölkə rəhbərinin iştirakı ilə həyata keçirilən tədbirlərə qısa nəzər salmaqla bunu aydın görmək olar. Belə ki, Prezident İlham Əliyevin iştirakı ilə ötən il Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunan “SOCAR karbamid”, yüksəksıxlıqlı polietilen, Pirallahı Sənaye Parkında “Diamed” şpris istehsalı zavodları istifadəyə verilib.

Yeri gəlmişkən, bu il fevralın 19-da SOCAR və Sumqayıt Texnologiyalar Parkı (STP) arasında birgə müəssisənin yaradılmasına dair müqavilə imzalanıb.

SOCAR-dan bildirilib ki, “SOCAR-STP” adlanan yeni birgə müəssisə MDB regionunun ən böyük mexaniki avadanlıq emalatxanasını və ağır kranlar zavodunu birləşdirən istehsalatı idarə edəcək.



Birgə müəssisənin yaradılması Azərbaycanın qlobal brendi olan SOCAR və ölkənin ən iri sənaye komplekslərindən Sumqayıt Texnologiyalar Parkı arasında neft-qaz hasilatı sektorunda maddi-texniki bazanın daha da təkmilləşdirilməsi, mütərəqqi texnologiyaların tətbiqi, texniki xidmət və mütəxəssis mübadiləsinin təminatı üzrə əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi məqsədini daşıyır. Birgə müəssisə beynəlxalq standartlara cavab verən yerli istehsal gücünü artırmağı, MDB, hətta daha geniş miqyasda neft-qaz-mədən avadanlıqları və texnologiyalara dair xidmətlər təklif edən aparıcı, eyni zamanda, rəqabətədavamlı şirkətə çevrilməyi hədəfləyir.

Yeni birgə müəssisənin əsas gücü hazırkı bazar tələblərinə uyğun olan peşəkar və təcrübəli texniki heyətin, sənaye səriştəliklərinin və müasir avadanlığın bir yerdə cəmləşdirilməsidir.

Sumqayıt Kimya Sənaye Parkında hazırda ildə 8 milyon kvadratmetr müxtəlif çeşiddə şüşə lövhələr, 370 ton iplik və 195 ton təmiz yun istehsal olunacaq müəssisələrin tikintisi də davam etdirilir.

İqtisadi tərəqqidə “Bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir” prinsipini strateji kurs kimi müəyyənləşdirən dövlət başçısının rəhbərliyi ilə ötən il sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması və s. vəzifələr uğurla gerçəkləşdirilib.

Bütün bunlar isə son nəticədə uğurlu statistik göstəricilərlə müşahidə olunub. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2019-cu ildə qeyri-neft-qaz sektoru 3,5 faiz, qeyri-neft-qaz sənaye məhsulu 14,3 faiz artıb.

Qeyri-neft sənayesinin inkişafında mühüm rol oynayan sənaye məhəllələrinin yaradılması da hazırda uğurla davam etdirilir. İqtisadiyyat Nazirliyinin məlumatında bu il Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələrində tamamlama işlərinin başa çatdırılacağının nəzərdə tutulduğu bildirilir.

Hacıqabul və Sabirabad sənaye məhəllələrində artıq tikinti yekunlaşıb və rezidentlərin qəbulu davam edir. Şərur Sənaye Məhəlləsində isə infrastrukturun qurulması ilə bağlı işlər sürətlə aparılır.

Xatırladaq ki, Azərbaycanda yaradılan 5 sənaye parkı və 4 sənaye məhəlləsində 80-dən artıq rezident fəaliyyət göstərir. Ümumilikdə, indiyədək sənaye zonalarında rezidentlər tərəfindən 6 milyard manata yaxın investisiya yatırılıb və 9 mindən çox yeni iş yeri yaradılıb. Ötən il həmin zonalarda istehsalın ümumi həcmində 2,6 dəfə artım qeydə alınıb.

Qeyd etmək lazımdır ki, sənaye zonalarında istehsal olunan məhsulun 80 faizdən çoxu Sumqayıt Kimya Sənaye Parkının payına düşür. Balaxanı Sənaye Parkının fəaliyyəti isə genişlənərək ikinci mərhələyə daxil olub.

İndiyədək sənaye zonalarında verilən investisiya təşviqi sənədləri üzrə layihələrin reallaşması yerli istehsala 4 milyard manatdan artıq investisiyanın yatırılmasına, 28 minədək yeni iş yerinin açılmasına səbəb olacaq. Bu layihələrin 87 faizi regionların payına düşür.

***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 1 mart.- S.5.